BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2014*

UOT 94(470); "16/18"

# XVIII ƏSRDƏ RUSİYANIN BEYNƏLXALQ VƏZİYYƏTİ VƏ XARİCİ SİYASƏTİNDƏ CƏNUB İSTİQAMƏTİ

**M.P.OSMANLI**
***Bakı Dövlət Universiteti***
***meharet.osmanli@mail.ru***

*Məqalədə Rusiyanın XVIII əsrdə Avropa ölkələri ilə münasibətləri, Avropada baş verən ümumavropa münaqişələrində iştirakı, Osmanlı dövləti ilə qarşılıqlı əlaqələrini beynəlxalq aspektdə inkişafı öyrənilmişdir. Həmçinin Rusiyanın beynəlxalq sistemdəki yerinin hansı proseslərlə şərtləndiyi göstərilmişdir. Bu məqalədə öyrənilən digər bir məsələ XVIII əsrdə Rusiyanın xarici siyasətinin cənub istiqamətidir. Cənub siyasəti XVIII əsrdə isti dənizlərə çıxış əldə etmək, Krıma sahib olmaq, Qafqaz və Balkanlarda möhkəmlənmək məqsədinə xidmət edirdi. Burada rusların bu siyasətinin Osmanlı dövlətinin maraqları ilə hansı səviyyədə toqquşduğu və bu problemin hansı yollarla həll edildiyi araşdırılmışdır.*

**Açar sözlər:** Rusiya, siyasət, vəziyyət, Cənub, istiqamət

Vestfal müqaviləsindən Fransa burjua inqilabına qədər olan dövrdə Avropada beynəlxalq münasibətlər sistemi kifayət qədər sabit idi. Hər hansı bir dövlətin digər dövlət üzərində hegemonluğuna son qoyulmuşdu. XVIII əsrdə baş vermiş müharibələr qüvvələr arasındakı mövcud tarazlıqda yalnız qismən dəyişikliklər yaradırdı. Bu cür dəyişikliklər Prussiyanın güclənməsi və Polşanın bölüşdürülməsi, müstəmləkələr və dənizlər uğrunda İngiltərə və Fransa arasındakı mübarizənin birincinin xeyrinə həll olması ilə əlaqədar baş verirdi. Beynəlxalq münasibətlər sistemində Rusiya da mühüm yer tutmağa çalışırdı.

XVII əsrin sonlarından etibarən Rusiya beynəlxalq münasibətlərdə daha fəal iştirak etməyə başladı. 1697-ci ildə Osmanlı dövləti əleyhinə Avstriya, Venesiya və bir neçə alman dövlətindən ibarət yaradılmış Müqəddəs liqaya rəsmən daxil oldu. Liqanı yeni iştirakçılar cəlb etməklə möhkəmləndirmək istəyən rus diplomatiyası o dövr üçün yenilik olan bir tədbir həyata keçirdi: 1697-1698-ci illərdə Avropaya "Böyük səfirlik" göndərdi. I Pyotrun da tərkibində olduğu bu səfirlik ilk dəfə idi ki, öz gözləri ilə Avropadakı siyasi vəziyyətlə tanış olurdu.

Şimal müharibəsində əldə edilən qələbə Rusiyanı Avropanın güclü dövlətləri sırasına daxil etdi. Bundan sonra o, beynəlxalq münasibətlərin inkişafına

daha fəal təsir göstərməyə başladı. Onun bu və ya digər alyansa daxil olması qüvvələrin ciddi şəkildə artmasına gətirib çıxarırdı ki, bu da öz növbəsində, ittifaqlar sisteminin transformasiyasına və Avropada tarazlığın bərpasına təkan verirdi. Sonrakı illərdə rus diplomatiyası müxtəlif konqreslərdə bilavasitə iştirak edərək bir çox hallarda Avropada sabitliyin saxlanmasına kömək edirdi. Belə ki, Rusiya XVIII əsrin ilk 30 ilində Avropa bir-biri ilə mübarizə aparan iki düşərgəyə - Vyana (Avstriya və İspaniya) və Hannover (İngiltərə, Fransa və Prussiya) bloklarına bölünəndə Avropada ümumi sabitliyin bərpası naminə 1728-1731-ci illərdə Suassonda keçirilən konqresin fəal iştirakçısı oldu.

XVIII əsrdə Rusiyanın beynəlxalq münasibətlərin inkişafına təsiri daha aydın özünü göstərməyə başladı. Öz tarixlərinin çətin dövrlərində Avropa dövlətləri kömək və vasitəçilik üçün Rusiyaya müraciət edirdilər. Məsələn, İspaniya (1701-1714), Polşa (1733-1735), Avstriya (1740-1748) irsi uğrunda müharibələr kimi ümumavropa münaqişələrində Rusiyanın mövqeyi daha təsirli, bəzən isə hətta həlledici olurdu.

Rusiya 1757-ci ildən Avstriya, İsveç və Fransa ilə birlikdə Prussiyaya qarşı Yeddiillik müharibədə iştirak etdi. Rus ordusu 1757-ci ildə Prussiya ordusunu Qross-Eqersdorf kəndi yaxınlığında məğlub etdi. 1758-ci ildə Keniqsberq ələ keçirildi və Çorndorf yaxınlığında II Fridrixin əsas qüvvələri darmadağın edildi. 1760-cı ildə Berlin tutuldu. Prussiya fəlakətin astanasında idi. Lakin hakimiyyətə gələn III Pyotr müharibəni dayandırdı və Rusiyanın ələ keçirdiyi bütün torpaqları geri qaytardı [1,123].

II Yekaterina hakimiyyətə gəldikdən sonra Avropa dövlətlərinin maraqlarından asılı olmayaraq, milli maraqları nəzərə alıb öz sisteminə uyğun hərəkət etmək fikrində idi. I Pyotrdan sonra o da özünün Avropada münsif olacağını elan etmişdi. Onun diplomatiyasının devizi belə idi: "Bütün dövlətlərlə dost olmaq lazımdır ki, zəifin tərəfində olmaq imkanını həmişə öz əlində saxlayasan", "özünün hər iki əlini sərbəst saxlayasan və heç kimin quyruğundan tutub getməyəsən". II Yekaterina Polşa, şərq və alman məsələlərinin həllində məhz bu prinsiplərə əsaslanırdı [2].

Rusiyanın Şərqi Avropada üstünlük əldə etmək uğrunda mübarizəsi Reç-Pospolitanın Prussiya, Avstriya və Rusiya arasında bölüşdürülməsi ilə ayrılmaz əlaqəli idi. Rusiyanın Polşada mövqeyi hələ Şimal müharibəsi dövründən kifayət qədər möhkəm idi. Lakin buradakı anarxiya və özbaşınalıq digər Avropa dövlətlərinin, xüsusən də Prussiya və Avstriyanın onun daxili işlərinə qarışmasına şərait yaradırdı. Fransa da Rusiyanın Avropada təsirinin zəifləməsinə çalışırdı. Bunun üçün isə Rusiyanın qərb sərhədlərində ona düşmən olan dövlətlərdən maneə səddi yaratmaq istəyirdi.

Polşa məsələsi III Avqustun 1763-cü ildə vəfatından sonra daha da kəskinləşdi. Belə ki, hər bir maraqlı tərəf hakimiyyətə öz əlaltısını gətirməyə çalışırdı. Prussiya bu məsələdə müvəqqəti olaraq, Rusiya ilə ittifaq qurmaq istəyirdi. Bununla o, Polşadan Baltik sahillərinin qoparılmasına, beləliklə də qərbi Polşa torpaqlarının şərqi Prussiyaya birləşdirilməsinə Rusiyanın razılığını

almaq ümidində idi. Prussiya çoxdan bəri bu torpaqlara göz dikmişdi. Hələ I Pyotrun dövründə üç dəfə Polşanın bölüşdürülməsini təklif etmişdi. Bununla da Rusiya Belorusiya və Ukrayna torpaqlarını ələ keçirə bilərdi. Lakin çar bundan imtina etmişdi [3, 575]. Rusiyanın Prussiya ilə yaxınlaşması 1764-cü ildə imzalanmış ittifaq barədə saziş ilə rəsmiləşdi. Müqavilənin gizli maddələrində Osmanlı dövləti ilə müharibə olacağı təqdirdə Prussiya tərəfindən Rusiyaya maliyyə yardımı ediləcəyi, İsveçdə vahid fəaliyyət, Polşa konstitutsiyasında hər hansısa bir dəyişikliyin olmasına imkan verməmək nəzərdə tutulurdu. Bu müqavilə Fransa və Avstriyanın rəhbərlik etdiyi şərq baryerinə qarşı Rusiyanın Prussiya, İngiltərə, eləcə də İsveç, Danimarka və Reç-Pospolitanın iştirakı ilə yaratdığı şimal sistemi üçün əsas oldu. Prussiyanın Polşa işlərinə daxil olmasına icazə verən Rusiya, digər tərəfdən Reç-Pospolitada siyasi təsirini saxladı və Avropada nüfuzunu möhkəmləndirməyə davam etdi [4, 331]. Bu 1768-ci ildə Osmanlı dövləti ilə başlamış müharibə ilə əlaqədar olaraq vacib idi.

Rusiyanın nüfuzunun Avropada artması Prussiya və Avstriyanı narahat edirdi. Bu iki dövlət qitədə arzuolunan tarazlığı saxlamaq üçün Rusiyanın Polşada təsirini zəiflətmək məqsədilə razılığa gəlmişdilər. II Fridrix və II İosif II Yekaterinaya Türkiyə ilə müharibəni başa çatdırması və rus ordusunu Dunay knyazlıqlarından çıxartması əvəzində Reç-Pospolitanın şərq rayonlarını tutmağı təklif edirdilər. Təbii ki, onlar da Polşa torpaqlarından öz paylarını almalı idilər. Belə bir demarş Avropa dövlətləri koalisiyasının Rusiyaya qarşı çıxacağı hədəsi ilə də möhkəmləndirilirdi. Bu "dostcasına" xəbərdarlıq boş sözlər deyildi. 1771-ci ilin yayında yaradılmış Avstriya-Türkiyə müdafiə ittifaqı II Yekaterinanı güzəştə getməyə və Polşanın bölüşdürülməsinə razılıq verməyə məcbur etdi. Lakin imperatriça Reç-Pospolitanın siyasi müstəqilliyinin tamamilə məhv olmasını istəmirdi və buna görə də, onun ərazisinin həddindən artıq kiçildilməsini məqsədəuyğun hesab etmirdi.

Polşanın birinci bölüşdürülməsi 1772-ci ilin iyul ayında Rusiya, Avstriya və Prussiya arasında üç ikitərəfli akt ilə təsdiqləndi. Rusiyaya Reç-Pospolitanın şərq əyalətləri (Şərqi Belorusiya), Avstriyaya Kiçik Polşa və Qalisiya, Prussiyaya isə qədim Polşa torpaqları olan Qdansk, Pomorye və Böyük Polşa torpaqları keçdi. Xüsusi bir manifestlə tərəfləri Polşanı bölüşdürməyə məcbur edən səbəblər elan edilirdi. Avropanın gözündə belə bir işğala könüllülük görüntüsü vermək üçün bildirilirdi ki, guya Polşa seymi özü bölüşdürülmə ideyasını dəstəkləyib. Belə görünürdü ki, bütün maraqlı tərəflər üçün bu ziddiyyətlərin həllində daha məqbul variantdır. Əslində isə şimal ittifaqı iflas etdi ki, bu da Avropada Rusiyanın təsirinin zəifləməsinə, Prussiya və Avstriyanın isə mövqeyinin güclənməsinə gətirib çıxardı.

Lakin 1778-1779-cu illərdə bavar irsi uğrunda Avstriya-Prussiya müharibəsi dövründə Rusiyanın Avropa səhnəsində rolu yenidən artdı. 1779-cu ildə Teşen konqresində döyüşən tərəflər arasında münaqişənin yoluna qoyulmasında vasitəçi kimi çıxış edən II Yekaterina Avropada tarazlığı bərpa edən sülh şərtlərini diktə etdi. Uzlaşdırılmış sülh alman xalqının Müqəddəs imperiyasının

quruluşunun dəyişməzliyini təsdiq etdi. Bavariya öz müstəqilliyini saxladı. Rusiya bu müqavilə ilə Avropada müəyyən olunmuş siyasi statusun qarantı oldu. Bu isə 1648-ci il Vestfal sülhünü təsdiqlədi və Rusiyaya alman dövlətləri arasındakı mübahisələrdə münsif olmaq hüququ verdi. Bundan sonra imperatriçanın Avropada və xüsusilə də, Almaniyada nüfuzu müstəsna dərəcədə artmış oldu.

Polşada sonrakı hadisələr konstitutsiyanın qəbulu və geniş demokratik hərəkat ilə bağlı idi. Bu, II Yekaterinaya müstəqilliyin müdafiəsi bəhanəsi ilə Polşaya qoşun çıxartmağa əsas verdi [5, 188].

1792-ci ilin dekabrında Polşanın yenidən bölüşdürülməsinin təşəbbüskarı yenə də Prussiya oldu. Peterburq 1791-ci il mayın 3-də qəbul olunmuş polyak konstitutsiyasında yakobinlərin təsirini gördü və Prussiyanın tələbləri ilə razılaşmalı oldu. Fransa kralı XVI Lüdoviqin edamı isə bu prosesi sürətləndirdi. 1793-ci ilin yanvarında Rusiya və Prussiya Avstriyanın xəbəri olmadan Polşanın ikinci bölüşdürülməsi barədə razılığa gəldilər. Müqaviləyə görə Prussiya Polşanın bütün həyati əhəmiyyətli torpaqlarını (Qdansk, Torun, Varta və Visla çayları arasındakı Polşa torpaqları) aldı. Rusiyaya isə Belorusiya və Sağsahili Ukraynası keçdi. Beləliklə, Ukrayna və Belorusiya torpaqlarının 1654-cü ildən başlayan Rusiyaya birləşdirilməsi prosesi başa çatdı. Bu dəfə də Polşa seymi müqaviləni ratifikasiya etdi [6]. Bu vaxtdan etibarən Polşa kralı Stanislavın hakimiyyəti uydurma bir hakimiyyətə çevrildi. Formal olaraq, müstəqil Polşa kimi qalan ərazilərin taleyi də əvvəlcədən həll olunmuşdu.

Ölkədə Tadeuş Kostyuşkonun qiyamı rus və pruss qoşunları tərəfindən yatırıldı. Bu da yenidən Polşanın bölüşdürülməsi məsələsini qaldırmaq üçün Prussiya və Avstriyaya bəhanə oldu. II Yekaterina da bu dövlətlərin Rusiyaya qarşı hər hansısa bir düşmənçilik fəaliyyətindən ehtiyat edərək bununla razılaşdı. Lakin Rusiyanın bufer ölkə kimi formal olaraq müstəqil olan Polşanın varlığına ehtiyacı vardı. 1795-ci ilin oktyabrında baş verən üçüncü və sonuncu bölüşdürülmə nəticəsində Qərbi Belorusiya, Litva, Kurlandiya Rusiyaya, Qərbi Ukrayna və Krakov Avstriyaya keçdi. Varşava ilə birlikdə 48 min $km^2$ əraziyə sahib olan Prussiya isə daha çox xeyir əldə etmiş oldu [7, 547]. Bu dəfə heç rəsmiyyət də nəzərə alınmadı. Seym çağırılmadı. Reç-Pospolita öz varlığını itirdi. Xüsusi Peterburq konvensiyası 1797-ci yanvarın 26-da bundan sonra Polşa krallığı adının işlədilməməsinə qərar verdi [8, 358].

Reç-Pospolitanın bölüşdürülməsindən danışarkən qeyd etmək lazımdır ki, bu ümumavropa miqyasında baş verən bir hadisə idi. Hər halda bu işə bütün Avropa cəlb olunmuşdu. Çoxəsirlik tarixə və mədəniyyətə sahib olan böyük bir Avropa dövlətinin tarix səhnəsindən silinməsi nəticəsində qitədə beynəlxalq münasibətlərin quruluşu dəyişdi. Polşanın bölüşdürülməsi son nəticədə XIX əsrdə Avropada müstəqil siyasi qüvvələrin diqqət mərkəzində duracaq və hər iki dünya müharibəsinin səbəblərindən biri olacaq polşa məsələsinin meydana gəlməsinə səbəb oldu.

Fransa burjua inqilabı da rus diplomatiyasının cəlb olunduğu bir silsilə

ziddiyyətlər əmələ gətirdi. İlk əvvəl II Yekaterina Parisdə baş verənlərə elə də ciddi əhəmiyyət vermirdi. Hesab edirdi ki, bu sadəcə bir xalq çıxışıdır və günahkar yalnız kral özüdür. Lakin 1791-ci ildə Fransa kralının qaçışı və sonra həbs olunması vəziyyəti dəyişdi. İmperatriça ilk antifransız koalisiyasının yaradılmasının və legitizm prinsipinin qurulmasının qatı tərəfdarı kimi çıxış etdi. Avropa dövlətlərinin mövqeyi ilə həmfikir olan Rusiya bununla Avstriya və Prussiyanın diqqətini Polşa məsələlərindən yayındırmağa çalışırdı. I Pavel hakimiyyətə gəldikdən sonra isə Fransa ilə sülhün tərəfdarı kimi çıxış etdi və hətta Direktoriya ilə II Yekaterina dövründə kəsilmiş diplomatik münasibətlərin bərpası haqqında danışıqlara başladı. Lakin Napoleonun Aralıq dənizi sahillərindəki işğallarından sonra rus imperatoru da ümumi təhlükəsizlik üçün fransızların sakitləşdirilməsinin vacibliyini anladı. 1798-ci ildə məhz I Pavelin dəstəyi ilə yeni antifransız koalisiyası yaradıldı. Koalisiyanın üzvləri İngiltərə, Avstriya, Türkiyə və Rusiya oldu. Müttəfiqlərin razılığına əsasən 1798-ci ilin payızında Rusiya Uşakovun komandanlığı altındakı Qara dəniz eskadrasını Aralıq dənizinə göndərdi. Bu eskadra İon adalarını, Korfu qalasını ələ keçirdi. 1799-cu ildə rus dənizçiləri Neapol və Romaya daxil oldular [9, 110].

Quruda isə müttəfiq qoşunları Suvorovun komandanlığı altında hərəkət edirdilər. 1799-cu ilin yazında avstriya və rus ordusu İtaliya yürüşünü başa çatdırdı. Milan və Türini fransızlardan azad etdi. Lakin tezliklə müttəfiqlər arasında münasibətlər gərginləşdi. Avstriya Rusiyanın nüfuzunun İtaliyada möhkəmlənməsindən ehtiyat edərək onun ordusunun İsveçrəyə göndərilməsinə nail oldu. Suvorovun dəstəsi Alp dağlarını keçərək Sen-Qotard və Şeytan burnunda düşməni məğlub etdi. Bununla da Rusiyanın müharibədə iştirakı başa çatdı [10].

I Pavelin siyasətindəki dəyişikliyin bir səbəbi müttəfiqlər arasındakı ziddiyyətlər idisə, digər səbəbi Fransadakı çevriliş idi. Hakimiyyətə Napoleon Bonapart keçdi və öz qüvvəsi ilə inqilabın öhdəsindən gəldi. Rusiya Fransa ilə yaxınlaşmağa başladı. Onun bu siyasəti rus zadəganlarının bir hissəsini ona qarşı qaldırdı və imperatorun qətli üçün bəhanə oldu. I Pavelin 1801-ci ildə öldürülməsi Rusiya tarixində yeni bir səhifə açmış oldu.

XVIII əsrdə Rusiyanın beynəlxalq sistemdə yeri beş əsas proses ilə müəyyənləşmişdi:

1. Qüdrətli Asiya dövlətlərinin siyasi gücsüzlüyünün aşkara çıxması. Rusiyanın sistemli şəkildə Asiyanın şərq və cənub sərhədlərinə tətbiq etdiyi təzyiqlər bu dövlətlərin süqutu prosesini labüd edən daxili prosesləri reallaşdırdı.

2. Asiyada əldə edilən təhlükəsizlik Rusiyaya bütün gücünü qərb məsələlərinə yönəltməyə imkan verdi. Nəticədə, XVIII əsrin əvvəllərində İsveç, sonlarında Osmanlı cinahı dəf edildi, Polşa məsələsi dağıdıldı.

3. Şərq baryeri dövlətləri ilə mübarizədə rus hökuməti XVIII əsrdə iki şərqi alman dövləti – Avstriya və Prussiya ilə yaxınlaşdı. Rusiya Avropada başqa dəstək tapa bilmədi. Ona görə də ən yaxşı halda Avstriya və Prussiyanı bir-birinə qarşı qoya bildi və son nəticədə başa düşdü ki, onun şərq baryeri ilə

mübarizəsinin bəhrəsi ona yox, Avstriya və Prussiyaya qaldı. Pribaltikada isveç irsindən Prussiya, Balkanlarda türk irsindən Avstriya, polşa irsindən hər ikisi istifadə etdilər. Nəticədə, bu iki dövlət Avropa diplomatiyasında Rusiyaya qarşı sipər oldular.

4. Bütün XVIII əsr ərzində yalnız Yeddiillik müharibə dövrü istisna olmaqla, rus-fransız münasibətləri durmadan pisləşdi. Fransa tarixçisi Rambo bu münasibətləri aşağıdakı kimi dövrləşdirir. 1654-cü ilədək Rusiya bizim üçün əhəmiyyətsizdir; 1654-1726-cı illərdə bizim üçün nisbətən fərqlidir, çünki şərqdəki müttəfiqlərimizə hücum edir; 1726-1756-cı illərdə o, nəinki müttəfiqlərimizin düşmənidir, həm də bizim düşmənimizdir (Avstriya Habsburqların müttəfiqidir); 1756-1775-ci illərdə Yeddiillik müharibədə Prussiyaya qarşı bizimlə müttəfiq olsa da, Avropada qüvvələr tarazlığı üçün təhlükə yaradır; 1775-1789-cu illərdə Fransa sanki başa düşür ki, Rusiya köhnə sistemin dağılmasın başa çatdırıb, yeni sistemin əhəmiyyətli elementi olacaq. Rusiyanın 1788-1790-cı illərdə şərq baryerinə endirdiyi son məhvedici zərbələr həm də Fransanın Şərqi Avropadakı siyasətinin məhvi demək idi.

5. XVIII əsrin sonlarında Fransanın çiyinləri üstündə duran beynəlxalq sistem zəiflədiyindən İngiltərə önə çıxmağa başladı. O, Rusiyaya qarşı yeni bir baryer nəzərdə tuturdu ki, bu da Prussiya və Avstriyadan ibarət olmalı idi. Köhnə baryerdən isə yalnız Türkiyə bura daxil ediləcəkdi. Çünki Qara dənizə çıxışı bağlayırdı. Lakin ingilislər hesab edirdilər ki, Rusiyanın Avropada təsirinin artmasını dayandırmaq üçün əsas vasitə yeni bir baryerin yaradılması deyil, XVIII əsrdə Asiyada Rusiya üçün yaranmış əlverişli şəraitin məhv edilməsidir [11, 223].

Osmanlı imperiyası da dünya ölkələri sistemində və eləcə də Rusiya ilə münasibətlərində özünəməxsus yer tuturdu. İmperiya belə demək olarsa, üçlü təbiətə malik idi. Bizans imperiyasının varisi kimi o, həm qərbə, həm də şərqə qarşı dururdu və tarixən Rusiyaya daha yaxın idi. Balkan yarımadasının, xüsusən də Moldaviya və Valaxiyanın, eləcə də Dardanelin, yəni Rusiyanın Avropaya qarşı yaratdığı şərq baryerinin üzvü idi. Nəhayət, müsəlman dünyası və türk xalqları ilə sıx əlaqələri səbəbindən Çingiz xanın birbaşa və bilavasitə varisləri olan xalqların qərb dünyası ilə sərhədində dayanırdı. XVIII əsrdə Osmanlı imperiyası Asiyanın Avropadakı mücəssəməsi idi [12, 276].

Əgər nəzərə alsaq ki, XVIII əsrin əvvəllərində Şərqi Avropa baryeri özünün Şimal-İsveç halqasından məhrum oldu və maneə yalnız Türkiyədən asılı qalmışdı, onda başa düşmək olar ki, nəyə görə şərq məsələsi, yəni türk məsələsi XVIII əsrin sonlarında ümumdünya beynəlxalq siyasətinin mərkəzində dururdu.

Vahid rus dövlətinin yaradılması prosesi başladığı vaxtdan etibarən Rusiyanın xarici siyasətində cənub istiqaməti xüsusilə fərqlənməyə başladı. Bu siyasət əsrlər boyu öz mahiyyətini dəyişsə də, həmişə diqqət mərkəzində olmuşdur. Belə ki, əvvəllər cənub istiqamətində aparılan siyasət cənubdan gələn təhlükənin dəf edilməsinə yönəldilmiş, daha sonra isə isti dənizlərə çıxış

əldə etmək, Krıma sahib olmaq, Qafqaz və Balkanlarda möhkəmlənmək məqsədinə xidmət etmişdir [13].

XVII-XVIII əsrin qovşağında Rusiyanın xarici siyasətində cənub istiqaməti daha çox ön plana çıxdı. Bu dəyişikliyin səbəblərindən biri hakim sinfin sosial-iqtisadi və daxili siyasətinin inkişafı idi. Çünki bu dövrdə eyni vaxtda həm feodalizm, həm də kapitalizm münasibətləri inkişaf edirdi. Kəndlilərin istismarı hesabına kənd təsərrüfatı məhsulları xeyli artmışdı. Manufakturaların hesabına isə xırda əmtəə istehsalı genişlənmişdi. Bütün bunlar daxili və xarici ticarətin yüksəlişinə səbəb olmuşdu. Bu isə öz növbəsində kənd təsərrüfatı məhsullarının daşınmasında, eləcə də cənub sərhədlərinin müdafiəsində Qara dənizə çıxış və Krım yarımadasına sahib olmaq məsələlərinin xüsusi əhəmiyyət kəsb etməsinə gətirib çıxarmışdı.

Rusiyanın cənub istiqamətindəki siyasətinin XVIII əsrdə fəallaşmasının səbəblərindən biri də bu dövrdə Osmanlı dövlətində getdikcə özünü göstərməyə başlayan tənəzzül idi. Belə ki, Türkiyənin əvvəlki qüdrətini qismən itirməsindən istifadə etməyə çalışan Rusiya Qara dənizə çıxış əldə etmək və Krıma sahib olmaq niyyətini həyata keçirməyə başladı [14, 93].

Qara dənizə çıxış əldə etmək uğrunda atılmış ilk addım 1695-1696-cı illərin Azov yürüşləri oldu. Bir neçə uğursuz yürüşdən sonra, nəhayət 1696-cı ildə Azov qalası ruslar tərəfindən alındı. Don çayının mənsəbində yerləşən Azov qalasının ələ keçirilməsi dənizə çıxış üçün imkan verirdi ki, bu da Azov-Qara dəniz hövzəsində Portanın tək hökmranlığını məhdudlaşdırırdı. Lakin I Pyotr müharibəni daha da genişləndirmək üçün Türkiyə əleyhinə Avropa dövlətlərindən ibarət koalisiya yarada bilmədi. Nəticədə Rusiya Osmanlı dövləti ilə 1700-cü ildə İstanbul müqaviləsini imzalamalı oldu. Müqaviləyə görə Azov qalası Rusiyaya keçdi. Lakin Rusiya onu uzun müddət əlində saxlaya bilmədi. I Pyotrun 1711-ci il Prut səfəri uğursuzluqla nəticələndikdən sonra qalanı Türkiyəyə qaytarmalı oldu. Bundan sonra Rusiya Qara dənizlə bağlı planlarını bir müddət təxirə saldı [15, 26].

Rusiyanın Qara dənizdən və Xəzər dənizindən keçən mühüm ticarət yollarını tutmaq və Prut müqaviləsinə görə itirdiyi əraziləri geri qaytarmaq məqsədi 1736-1739-cu illəri əhatə edən növbəti rus-türk müharibəsinə səbəb oldu. Bu müharibə nəticəsində 1739-cu ildə imzalanmış Belqrad müqaviləsinə görə Azov qalası Rusiyaya keçsə də, o, qalanı möhkəmləndirmək və Azov dənizində donanmaya sahib olmaq hüququ əldə edə bilmədi.

XVIII əsrin ikinci yarısında Rusiyanın xarici siyasətində cənub istiqaməti, xüsusilə Qara dəniz problemi daha inadkar xarakter aldı. II Yekaterinanın hələ I Pyotrun dövründə qarşıya qoyulmuş mühüm strateji məqsədi həyata keçirmək cəhdi Türkiyə ilə iki böyük müharibənin baş verməsinə gətirib çıxardı.

1768-1774-cü illər müharibəsi nəticəsində rus gəmilərinə Qara dənizdə ilk dəfə olaraq üzmək ixtiyarı verildi, rus ticarət gəmiləri boğazlardan sərbəst keçmək hüququ aldı. Bununla da, Rusiya Qara dəniz dövlətinə çevrildi. Bu müqavilə rusları Qara dənizə gətirərək onlara Qafqaza və Kubana sərbəst çıxış

verdi. Krımın işğalı üçün əlverişli şərait yaratdı.

Rusiya Qara dəniz sahillərində möhkəmləndi və burada hərbi donanma yaradaraq, qalalar tikərək özünün cənub sərhədlərinin təhlükəsizliyini təmin etmək imkanı qazandı. Eyni zamanda ölkənin xarici ticarəti üçün də perspektivlər açıldı. Dnepr, Don, Kerç kimi vacib çayların mənsəbinə sahib olan rus tacirləri digər ölkələrlə öz ticarət əlaqələrini genişləndirdi. Bütün bunlar, eləcə də boğazların rus ticarət gəmiləri üçün açılması Rusiyanın cənub sərhədlərinin inkişafını təmin etdi.

Bu müqavilə Qara dəniz problemini qismən həll etmiş oldu və Rusiyanın qarşısına yeni tələblər qoydu - Bosfor və Dardanel boğazlarının rus hərbi gəmiləri üçün açılması. Bundan sonra Rusiya məhz bu məqsədinin həyata keçməsi üçün səy göstərməyə başladı.

Kiçik Qaynarca müqaviləsinə əsasən Krım müstəqil elan edilsə də o, öz istiqlaliyyətini müdafiə edə bilmirdi. Türkiyənin yardımından məhrum olan xanlıq daxilən zəifləmişdi. Bundan istifadə edən II Yekaterina 1783-cü ildə Krımın Rusiyaya birləşdirilməsi haqqında fərman verdi. Krımın birləşdirilməsi Rusiya üçün çox böyük əhəmiyyət kəsb edirdi. Əbəs yerə Avstriya kralı II İosifin qardaşı Leopold Toskanski Rusiyanın Krım yarımadasından İstanbulun taleyi üçün təhlükə yaratdığını deməmişdi [16, 408]. Osmanlı dövlətinin buna etirazı növbəti müharibə üçün bəhanə oldu. 1787-1791-ci illərdə baş vermiş müharibənin sonunda imzalanmış Yassı müqaviləsinə görə isə Rusiya geniş ərazilər ələ keçirdi, Şimali Qara dəniz ətrafı ərazilərdə möhkəmləndi, həmçinin Bosfor və Dardanel boğazlarından sərbəst keçmək hüququ aldı. Bu bir tərəfdən ölkənin müdafiə qabiliyyətini artırdı, digər tərəfdən isə Qara dəniz limanları vasitəsi ilə rus məhsullarının daşınmasına imkan yaratdı. Rusiyanın Aralıq dənizi ölkələri ilə əlaqələri genişləndi.

Rusiyanın xarici siyasətindəki cənub istiqamətində digər bir məsələ Qafqaz idi. Burada da onun əsas rəqibi Osmanlı dövləti oldu. Rusiya İsveçlə apardığı Şimal müharibəsini uğurla başa çatdırdıqdan sonra Qafqaz öz nüfuz dairəsinə daxil etmək üçün tədbirlər görməyə başladı. Bu isə öz növbəsində həm Şimali, həm də Cənubi Qafqazda Rusiya və Osmanlı dövləti arasında dəfələrlə müharibə şəraitinin yaranmasına səbəb olurdu. XVIII əsrin birinci yarısında Rusiya Qafqazda elə bir ciddi nailiyyət əldə edə bilməmişdi. Lakin əsrin ikinci yarısında vəziyyət dəyişdi. Rusiya ilə Osmanlı dövləti arasında 1768-1774-cü illərdə baş vermiş müharibə nəticəsində imzalanmış Kiçik Qaynarca müqaviləsinə əsasən Böyük və Kiçik Kabarda üzərində Rusiya himayəçiliyi elan olundu. Bu aktla hüquqi cəhətdən Kabardanın Rusiyaya birləşdirilməsi başa çatdı. 1774-cü ildə osetinlər, 1781-ci ildə isə çeçen-inquşlar Rusiyanın tərkibinə daxil edildilər. Birinci rus-türk müharibəsindəki qələbələrindən sonra Qara dənizin şimal sərhədlərində və Şimali Qafqazda xeyli möhkəmlənən Rusiya Gürcüstanın da işğalına dair öz planlarını həyata keçirməyə başladı. 1783-cü ildə Georgiyevsk qalasında Rusiya ilə Kartli-Kaxetiya çarlığı arasında traktat imzalandı. Bu müqavilə ilə Şərqi Gürcüstan Rusiyanın

himayəsini qəbul etdi. Türkiyə isə ikinci rus-türk müharibəsindən sonra bunu tanımalı oldu [17].

Beləliklə, Rusiya XVIII əsrin sonlarında xarici siyasətindəki cənub istiqaməti ilə bağlı qarşısına qoyduğu məsələlərin bir qismini həll etmiş oldu. Belə ki, uğrunda uzun illər boyu mübarizə apardığı Qara dənizə çıxış əldə etdi. Boğazlardan özünün ticarət və hərbi gəmilərini keçirmək hüququ qazandı. Ölkəsinin iqtisadi cəhətdən güclənməsi üçün mühüm əhəmiyyət kəsb edən Şimali Qara dəniz sahillərində, Şimali Qafqazda möhkəmləndi.

**ƏDƏBİYYAT**


1. Анисимов Е.В. Россия в середине XVIII в. М.: Мысль, 1988, 237 с.
2. Виноградов В.Н. Дипломатия Екатерины Великой // www.vivosvoco.ru
3. Соловьев С.М. История России с древнейших времен. М.: Мысль, 1965, 670 с.
4. История дипломатии. М.: АСТ, 2009, 943 с.
5. История внешней политики России в XVIII веке. М.: Наука, 1998, 548 с
6. Николаев В. Польский вопрос // www.zavtra.ru
7. Стегний А.С. Разделы Польши и дипломатия Екатерины II 1772-1795. М.: Меж. отнош. 2002, 673 с.
8. Ключевский В.О. Курс русской истории. М.: Вече, 2004, 448 с.
9. Россия в XVIII-XX веках. Москва: Университет, 2000, 254 с.
10. Измозик В.С. Империя в XVIII веке // www.naukomania.ru
11. Поршнев Б.Ф. К вопросу о месте России в системе европейских государств в XV-XVIII веках. М.: Моск. Университет, 1948, 275 с.
12. Haluk Gürsel Tarih boyunca türk-rus ilişkileri. İstanbul: Ak Yayınları, 1968, 837 s.
13. Мзареулов А.М. Южное направление во внешней политике России //www.viperson.ru
14. Троицкий С.М. Россия в XVIII веке. М.: Наука, 1982, 254 с.
15. Орешкова С.Ф. Русско-турецкие отношения в начале XVIII в. М.: Наука, 1972, 205 с.
16. Брикнер А.Г. История Екатерины // М.: СВАРОГ и К., 2000, 618 с.
17. Назаров М.В. Георгиевский трактат // www.rusidea.org


## МЕЖДУНАРОДНОЕ ПОЛОЖЕНИЕ РОССИИ В XVIII ВЕКЕ И ЮЖНОЕ НАПРАВЛЕНИЕ ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ

**М.П.ОСМАНЛЫ**

**РЕЗЮМЕ**

В статье изучаются развитие основных аспектов международных отношений России со странами Европы, а также её участие в общеевропейских конфликтах и взаимные связи с Османской империей. Также показаны, какие процессы обусловили место России в системе международных отношений. Следующий вопрос данной статьи является Южное направление во внешней политике России XVIII веке. Южное направление в политике XVIII века служила целью выхода к теплым морям, захватить Крым и укрепить свое влияние на Кавказе и на Балканах. Здесь также исследуются вопросы, связанные столкновением интересов России и Османской империи в этих регионах.

**Ключевые слова**: Россия, политика, положение, Юг, направление

**EXTERNAL SITUATION OF RUSSIA AND THE SOUTHERN DIRECTION IN ITS FOREIGN POLICY IN THE XVIII CENTURY**

**M.P.OSMANLI**

**SUMMARY**

The relations of Russia with the European countries in the XVIII century, its participation in the European conflicts occurring in Europe, development of the mutual relations with Ottoman State in external aspect are studied in the article. The processes conditioning the position of Russia in the international system are specified as well. Further, the article studies the southern direction of Russian foreign policy in the XVIII century. The southern policy served the purpose of accessing to the hot seas, possessing the Crimea, and strengthening in the Caucasus and the Balkans.

The ways of the solution of the clash of interests of Russia and the Ottoman Empire in these regions are illustrated as well.

**Key words:** Russia, policy, situation, South, direction